2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Tofiq Həsənovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2019-cu il tarixli 25 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 27 dekabr 2019-cu il

Mən, ekspert qrupunun üzvü Tofiq Həsənov 2019-cu il dekabrın 23-də bələdiyyələrə keçirilmiş seçkilərdə 61 saylı Neftçala seçki dairəsindən Xol Qarabucaq bələdiyyəsi üzrə qeydə alınmış namizədlər Əmrahov Şirin Allahbaxış oğlu və digərlərinin səsvermə günü Dördlər kəndində 35 saylı seçki məntəqəsində səslərin sayılması prosesini düzgün aparılmamasına dair 26 dekabr 2019-cu ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 saylı müraciətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m :**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinin pozulması ilə daxil olduğundan aidiyyəti üzrə dairə seçki komissiyasına göndərilməlidir.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Seçki Məcəlləsinin tələbinə görə səsvermə günü seçki məntəqələrində iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkət (hərəkətsizliyindən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 61 saylı Neftçala seçki dairəsindən Xol Qarabucaq bələdiyyəsi üzrə qeydə alınmış namizədlər Əmrahov Şirin Allahbaxış oğlunun və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2019-cu il tarixli 25 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Tofiq Həsənov